10. Waris, A. (2022). Marketing communication strategy in promoting graduates vocational tourism schoolto graduatesusers. *The 2nd International Conference on Communication Science (ICCS),* 303-309.

**Ruhani dəyərlər kompas kimi: Davamlı inkişaf məqsədlərinin (SDG-Lər) sürətləndirilməsində Azərbaycanlı gənclər üçün xarakter tərbiyəsinin inteqrasiyası**

Qloballaşma cərəyanı və 2030 Gündəliyinə keçid çətinlikləri fonunda azərbaycanlı gənclər dəyişiklik agentləri kimi mühüm rol oynayırlar. Lakin Davamlı İnkişaf Məqsədlərinə (DİM) çatmaq yalnız texniki yeniliklər və maddi siyasətlərlə mümkün deyil; bu, həm də güclü etik və mənəvi əsas tələb edir. Bu işdə ruhani təhsilin “kompas” rolunu araşdırılmış və azərbaycanlı gənclərin xarakterinin formalaşmasında, Davamlı İnkişaf Məqsədlərinə, xüsusilə 4-cü (Keyfiyyətli Təhsil), 13-cü (İqlim Fəaliyyəti) və 16-cı (Sülh, Ədalət və Güclü İnstitutlar) məqsədlərə nail olmağı sürətləndirməkdəki rolunu öyrənilmişdir. Ədəbiyyatın nəzərdən keçirilməsi və Azərbaycanda təhsil siyasətinin təhlili vasitəsilə keyfiyyət metodlarından istifadə edərək, tezisdə ənənəvi mənəvi dəyərlərin və 'Azerbaijanism' (Azərbaycançılıq) anlayışının müasir xarakter tərbiyəsinə necə inteqrasiya oluna biləcəyi araşdırılmışdır. Nəticələr göstərir ki, mənəvi təhsil gənc nəsil arasında sosial məsuliyyət şüurunu, mədəniyyətlərarası empatiyanı və ekoloji etikanı artırır. Bu inteqrasiya hərəkət üçün daha orijinal və davamlı bir çərçivə təmin edir, burada transsendental dəyərlər gənclərin qlobal məsələlərdə fəal iştirak etməsi üçün daxili motivator rolunu oynayır. Nəticə etibarilə, davamlı inkişafa nail olmaq üçün təkcə intellektual cəhətdən yetkin deyil, həm də mənəvi bütövlüyə malik bir nəsil yetişdirmək üçün xarakter tərbiyəsində mənəvi ölçünün gücləndirilməsi əsas şərtdir.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIQDA İŞTİRAKININ HÜQUQİ-SİYASİ ƏSASLARI

**Nəzrin Kərimova**
Azərbaycan Dillər Universiteti, Bakı

Ölkələrin regionlarının beynəlxalq əlaqələrdə iştirakı dövlətlərin xarici siyasətində regional komponentin yaranmasına səbəb olur. Bu tendensiya bir-birinə təsir edən iki dinamik proses kimi inkişaf edən qloballaşma və regionallaşma şəraitində daha da güclənir, regionlararası təmaslar beynəlxalq münasibətlər sisteminin tərkib hissəsinə çevrilir. Keçmiş Sovetlər Birliyinə daxil olan respublikaların hamısı konstitusiya-hüquqi statusuna görə Rusiya istisna olmaqla, unitar respublikalardır. Eyni zamanda, bəzi unitar dövlətlərin muxtar qurumları var ki, bu da öz konstitusiya-hüquqi mahiyyətinə görə təkcə postsovet məkanında deyil, həm də dünya dövlət quruculuğu praktikasında kifayət qədər nadir haldır. Unitar dövlətdə muxtariyyət o anlama gəlir ki, dövlət ərazisinin müəyyən hissəsi bu ölkənin konstitusiya qanunvericiliyinə uyğun olaraq ona verilmiş özünüidarə hüququna və nisbi sərbəstliyə malikdir [7, s.256].

Muxtariyyətin hüquqi statusunun əsasları tərkibində olduqları dövlətin konstitusiyasında və öz qanunlarında (muxtariyyətin konstitusiyası tərkibində olduğu dövlətin konstitusiyasına uyğun olmalıdır) təsbit edilmişdir. Muxtar respublika başqa dövlətin tərkibində olan dövlətdir; öz konstitusiyasına malikdir; öz səlahiyyətləri daxilində qanunvericilik fəaliyyətini həyata keçirir; ali dövlət hakimiyyəti orqanlarına malikdir, ümumi dövlət çərçivəsində öz vətəndaşlığına malik olmaq mümkündür. Milli muxtariyyət nümunələri İspaniyada Basklar ölkəsi və Kataloniya, Fransada Korsika, Serbiyada Kosovodur. Milli azlıqların kompakt və ya dağınıq şəkildə yaşamasından asılı olaraq xarici elmdə, adətən, üç muxtariyyət anlayışından istifadə olunur: şəxsi, korporativ və milli-ərazi, baxmayaraq ki, bir çox başqa təsnifatlar da var [5, s.17-18].

Dünya praktikasında muxtariyyətin bir sıra formaları mövcuddur: siyasi muxtariyyətlər inzibati-idarəçilik muxtariyyətləri ilə müqayisədə daha geniş səlahiyyətə malikdir. Lakin

qanunvericilik səlahiyyətlərinin mövcudluğu muxtariyyətlərin onların həyata keçirilmə hüdudlarında tam müstəqilliyindən danışmağa imkan vermir ki, bu da siyasi muxtariyyətlər və federasiya subyektləri arasında fərq qoymağa imkan verir. Ərazi muxtariyyətləri - əhalisinin milli-mədəni öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək məqsədi ilə bu ərazilərin milli, tarixi və ənənəvi xüsusiyyətləri ilə müəyyən edilmiş müəyyən həcmdə təsis, qanunvericilik və icraedici səlahiyyətlərə malik olan, unitar dövlət daxilində inzibati-ərazi vahidləridir. Milli-mədəni muxtariyyətlər milli-mədəni öz müqəddəratını təyinetmə formasıdır, özünü dövlətin ərazisində milli azlıq vəziyyətində olan müəyyən etnik icmaya mənsub hesab edən vətəndaşların özünəməxsusluğunun qorunub saxlanması, milli mədəniyyətin inkişafı məsələlərini müstəqil həll etmək məqsədi ilə könüllü özünütəşkili əsasında birləşməsidir [6].

MDB-də muxtar qurumların, onların inzibati-ərazi bölgülərinin əsasları 1920-1930-cu illərdə sovet dövlətinin federal quruluşunu müəyyən edən milli dövlət quruculuğu dövründə qoyulmuşdur. Azərbaycan Respublikasının tərkibində olan Naxçıvan Muxtar Respublikasının (MR) yaranması tarixində XX əsrin 20-ci illərin əvvəllərində Ermənistanın bu əraziyə iddia etməsi ilə əlaqədar dramatik məqamlar vardır. Əhəmiyyətli dərəcədə bölgəyə erməni iddiaları, habelə sovetləşmədən sonra Zəngəzurun Ermənistana verilməsi ilə əlaqədar Naxçıvanın Azərbaycanın qalan ərazilərindən ayrı düşməsi və eksklava çevrilməsi onun muxtar statusda Azərbaycan tərkibində təsbit olunmasını şərtləndirdi. 1924-cü ildə yaradılan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Sovetlər Birliyində etno-konfessional əsasda yaradılmayan yeganə muxtariyyət idi [8, s.82].

Naxçıvanın Azərbaycanın tərkibində suveren muxtar respublika kimi hazırkı siyasi-hüquqi statusu mənşəyinə görə Avropa ölkələri tərkibindəki digər məlum muxtariyyətlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, Naxçıvan öz statusunu bu regionla dövlət-siyasi “mərkəz”, yəni Bakı arasında münasibətlərin nizamlanması və ya münaqişələrin aradan qaldırılması nəticəsində deyil (müasir Avropa dövlətlərinin əksəriyyətində inzibati-ərazi qurumlarının muxtariyyəti məhz bu yolla baş verirdi), 1921-ci ildə Rusiya və Türkiyə arasında Moskva və Qarsda bağlanmış iki beynəlxalq müqavilə ilə əldə etmişdir. Məhz sözügedən müqavilələr Naxçıvana Azərbaycanın tərkibində siyasi və inzibati muxtariyyət statusu verən beynəlxalq hüquqi əsas rolunu oynayır. Başqa sözlə, Naxçıvanın muxtariyyətə çevrilməsi Azərbaycan Respublikasının “daxili işinin” həllinin sayəsində deyil, bu addımı regionun 1920-ci ilin əvvəllərində obyektiv olaraq mövcud olan geosiyasi problemlərin aradan qaldırılması üçün təsirli vasitə kimi görən bir neçə ölkənin siyasi birləşmiş iradəsinin nəticəsində baş vermişdi [4, s.26].

Naxçıvanın muxtariyyəti, daha dəqiq desək, beynəlxalq hüquqi baxımdan tanınması və onun Azərbaycanın tərkibində xüsusi siyasi-hüquqi statusunun təsbiti öz dövrü üçün son dərəcə aktual olan millətlərarası gərginliyin şiddətini azaltmaq kimi etnosiyasi və geosiyasi məqsəd güdürdü. Beləliklə, 1921-ci ildə Naxçıvan Muxtar Vilayəti siyasi-hüquqi statusu kənardan müəyyən edilən və metropoliya dövlətin bilavasitə iştirakı ilə onun yurisdiksiyasına verilən ilk dövlət-ərazi qurumu oldu.

Naxçıvan MR inzibati-siyasi muxtariyyətdir. Azərbaycan bölgələri arasında öz coğrafi və hüquqi-siyasi statusuna görə xüsusi yer tutan Naxçıvan MR AR Konstitusiyasına əsasən “Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika” kimi təsbit olunmuşdur [1]. AR Konstitusiyasının və qanunvericiliyinin müddəaları, AR Prezidentinin fərmanları və AR NK-nin qərarları Naxçıvan MR ərazisində məcburidir (134-cü maddənin 4-cü hissəsi). Eyni zamanda, muxtariyyət Konstitusiyası və qanunları AR Konstitusiyasına və qanunlarına zidd olmamalıdır (134-cü maddənin 5-ci hissəsi). AR Konstitusiyası muxtariyyətin ali dövlət hakimiyyəti və yerli icra hakimiyyəti orqanlarının sistemini də müəyyən edir.

Naxçıvanın muxtariyyət statusu ilə ispan muxtariyyətləri arasında zahiri analogiya aparmaq mümkün olsa da, problemin daha yaxından öyrənilməsi daha çox fərqlilikləri aşkara çıxarmağa imkan verir. Əvvəla, fundamental fərqlilik Azərbaycan və İspaniyanın real siyasi-hüquqi durumunun müxtəlifliyindən qaynaqlanır. Əgər İspaniyanın dövləti quruluşunu kvaziunitar kimi səciyyələndirə biləriksə (belə ki, formal olaraq unitar elan olunan İspaniya krallığı, yetərincə geniş hüquq və səlahiyyətləri olan 17 muxtariyyətin mövcudluğu səbəbilə faktiki olaraq federativ dövlətlərə xas bir çox xüsusiyyət və əlamətlər daşımaqdadır), Azərbaycan sözün klassik anlamında unitar dövlətdir.

İkincisi, tarixi, etnomədəni və regional mülahizələrə istinadla yaradılmış ispan muxtariyyətlərindən fərqli olaraq, əhalisi müstəsna olaraq Azərbaycan türkləri olan Naxçıvan, sırf 1918-1924-cü illərdə cərəyan edən və erməni ekspansionizmi nəticəsində faciəvi fəsadlara gətirib çıxaran hərbi-siyasi və geosiyasi proseslərin yekunu olaraq muxtar qurum kimi konstruksiya olunmuşdur. Bu muxtariyyət inzibati-ərazi tiplidir.

Ümumiyyətlə, Naxçıvan MR-nın politoloji meyarlara əsaslanaraq, regional təsnifatı belə verilə bilər: 1. Dövlət quruluşuna görə o, unitar dövlətin regionudur; 2. İnzibati-ərazi prinsipi üzrə təşkil olunmuşdur; 3. Dövlət sərhədinə münasibətdə sərhədyanı bölgədir; 4. Xarici iqtisadi açıqlıq prinsipinə görə ixracyönümlü tipli regiondur.

Naxçıvan MR Avropanın müxtəlif regionları, muxtar qurumları və federal subyektləri ilə səmərəli ikitərəfli əlaqələr yaratmaq imkanı verən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin və Avropa Birliyi Şərq Tərəfdaşlığı Regional və Yerli Hakimiyyətlər Konfransının üzvüdür. Məhz Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 2012-ci ildə Strasburqda keçirilmiş 23-cü plenar sessiyasında Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan sənəd kimi qiymətləndirilmişdir [3, s.263].

İnzibati-siyasi muxtariyyət olan Naxçıvan MR-nın tarixi, yaranma səbəbləri və konstitusiya təcrübəsi onu dünyanın ən nadir muxtariyyətlərindən biri kimi səciyyələndirməyə imkan verir. Dünyanın bir çox digər unitar dövlətlərinin təcrübəsindən fərqli olaraq, Naxçıvan MR Azərbaycan əhalisi ilə ortaq milli-etnik köklərə, ortaq tarixə, vahid dilə, mədəniyyətə və dinə malikdir. Burada siyasi muxtariyyət başqa ölkələrdə olduğu kimi milli faktora əsaslanmayıb, sırf tarixi-coğrafi faktor nəzərə alınmaqla yaradılmışdır.

**Açar sözlər:** Naxçıvan Muxtar Respublikası, muxtariyyətin formaları, unitar dövlət, federativ dövlət, Naxçıvanın hüquqi-siyasi statusu, regionların beynəlxalq əməkdaşlığı.

## Ədəbiyyat

1. https://e-qanun.az/framework/897
2. Əlirzayev, Ə.Q., Yusupov, Q.M. (2019). Sərhədyanı regionun sosial-iqtisadi inkişafında turizmin rolu. *UNEC Elmi Xəbərləri*, 7, 5-17.
3. Hacıyev, İ. (2018). *Naxçıvan Azərbaycanın Dövlətçilik Tarixində*. Bakı, Elm, 372.
4. Кузнецов, О. (2014). Международно-правовой статус Нахчывана по Московскому и Карскому договорам 1921 года (сравнительно-правовой анализ). *Из Прошлого, 3*(69), 26-33.
5. Мешков, М.Ю. (2005). Политико - правовой статус в республиках СНГ. Автореферат диссертации на соискание ученой степени кандидата политических наук, Москва, 24.
6. https://lektsia.com/4x43c4.html
7. Чиркин, В.Е. (2011). *Публично-Правовое Образование*. Москва: Норма: ИНФРА, 336.
8. Цыкунов, Г.А., Демешко, И.В. (2020). Автономии в странах СНГ: Советское прошлое и современность. *Известия Иркутского Государственного Университета. Серия Политология. Религиоведение,* 32, 81.